# Türk Dili ve Edebiyatı İncelemeleri Dergisi

Year: 3 - Number: 1 p. 77-79, Summer 2025

DOI:

## Əbülfəz Aman Oğlu Quliyev
## (1950-...)

Araştırma Makalesi / Research Article

Makale Geliş Tarihi / Article Arrival Date 14.06.2025

Makale Kabul Tarihi / Article Accepted Date 30.06.2025

Makale Yayın Tarihi / Article Publication Date 30.06.2025

Türk Dili ve Edebiyatı İncelemeleri Dergisi

**Prof. Dr. Sayalı Sadıgova**

AMEA, Nəsimi adına Dilçilik İnstitutu
sayalisadigova@yahoo.com

***ORCID ID***
*https://orcid.org/0000-0003-2858-5904*



Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində dilimizin ilkin qaynaqlarını təşkil edən qədim Türk dilini, Türk dillərinin formalaşması, tarixi inkişaf yolları, Türk xalqlarının istifadə etdiyi yazı sistemləri haqqında mühazirələri əsasında *"Qədim Türk Abidələrindən Seminar Məşğələləri"* (1988) adlı metodik vəsait və *"Qədim Türk Yazılı Abidələri Müntəxəbatı"* (1993) kitabını hazırlayıb nəşr etdirmişdir. Alimin yaradıcılığının əsas istiqaməti qədim Türk abidələrinin dilinin tədqiqi ilə bağlıdır. Onun *"Qədim Türk Yazılı Abidələrinin Sintaksisi", "Qədim Türk Onomastikası", "Orxon-Yenisey Abidələrində Feilin Təsriflənməyən Formaları", "Orxon-Yenisey Abidələrində Toponim Və Etnonimlər" (2004), "Qədim Türk Abidələrinə Aid Materiallar", "Qədim Türk Onomastikasının Leksik-Semantik Sistemi (2 Cild)", "Qədim Uyğur Türklərinin Onomastikası"*(2014) kimi monoqrafik tədqiqat əsərləri bu istiqamətdə apardığı uzun müddətli araşdırmaların uğurlu nəticəsidir. Ə.A.Quliyevin *"Qədim Türk Abidələrinin Sözlüyü"* və *"Əski Türk Onomastik Sözlüyü"* əsərlərində qədim Türk sözləri toplanmışdır. 1993-2003-cü illərdə Azərbaycan dilçiliyi kafedrasının müdiri olmuşdur. 2003-cü ildə *"Qədim Türk Onomastikasının Leksik-Semantik Sistemi"* mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bu tədqiqatda qədim Türk onomastik vahidləri tədqiq edilərək, onların leksik-semantik xüsusiyyətləri müəyyənləşdirilmiş və Türkologiyada ilk fundamental işlərdən biri kimi dəyərli mənbədir.

2003-cü ildə AMEA-nın Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna direktor təyin edilmişdir. 50 kitabın, 350-yə yaxın elmi məqalənin müəllifi Əbülfəz Quliyev 2006-cı ildə professor elmi adını almışdır. Onun *"Məişət-Mərasim Nəğmələri"* (Naxçıvan: 2010), *"Azərbaycan Mərasim (Toy) Nəğmələri"* (Bakı: 2010) adlı kitabları folklorşünaslıqda dəyərli məxəzlərdən hesab edilir. Alim Türkiyə Cümhuriyyətinin ali məktəblərində mühazirə oxumağa dəvət olunmuş, o burada Türkologiya, qədim Türkcə, orta Türkcə fənlərini tədris etmişdir. Əbülfəz Quliyevin elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmiş, respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Alim. Bu sahədə onun 2002-ci ildə nəşr olunmuş *"Qədim Türk Onomastikasının Leksik-Semantik Sistemi"* adlı əsəri mühüm əhəmiyyət kəsb edir.

Görkəmli alimin Türkiyədə *"Azərbaycan Xalq Ədəbiyyatında Naxçıvan Maniləri"* və *"Azərbaycan Düyün Türküləri"* (Ankara, 2008) kitabları nəşr olmuşdur. Türkiyədə işləyərkən o eyni zamanda rus şərqşünası A.Borovkovun *"Orta Asiyada Tapılmış Türkcə "Quran" Təfsirinin Leksikası (XII-XIII əsr)"* adlı irihəcmli monoqrafiyasını (2002) Türk dilinə tərcümə edərək Türk Dil Qurumunun xətti ilə nəşr etdirmişdir. Əbülfəz Quliyev 20 ilə yaxındır ki, AMEA-nın Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışır. İnstitutun Dialektologiya şöbəsi onun rəhbərliyi altında Naxçıvanın dialekt və şivələrinin öyrənilməsi, tədqiqi ilə məşğuldur. Əbülfəz Quliyevin müəllif kollektivində iştirakı ilə tərtib olunan *"Azərbaycan Dilinin Dialektoloji Atlası"* 1990-cı ildə nəşr olunmuşdur.

Görkəmli alimin ən mühüm tədqiqat sahələrindən biri də Azərbaycan dilinin dialekt və şivələrinin tədqiq olunmasıdır. O, Naxçıvan dialekt və şivələrini sistemli şəkildə araşdıraraq, onların fonetik, morfoloji və leksik xüsusiyyətlərini müəyyənləşdirmişdir. Bu istiqamətdə onun 2009-cu ildə çap olunan *"Nahçıvan Ağ- zı"* əsəri elmi dəyəri ilə seçilir. Sonralar da AMEA Nəsimi adına Dilçilik İnstitutu ilə səmərəli əməkdaşlıq etmiş və *"Azərbaycan Dilinin Naxçıvan Dialektoloji Atlası"* işıq üzü görmüşdür. Onun 2010-cu və 2011-ci illərdə *"Naxçıvan Dialekti"* və *"Naxçıvan Ağızlarının Söz Varlığı"* monoqrafiyalarında Naxçıvan dialekti sistemli şəkildə tədqiq edilmişdir.

Əbülfəz Quliyev görkəmli Türk şairi və sufi mütəfəkkiri Mövlana Cəlaləddin Ruminin (XIII əsr) *"Məsnəvi"*sinin ilk dəfə Azərbaycan dilinə tərcümə etmiş və Naxçıvandakı "Əcəmi" nəşriyyatında 3 cilddə (2012) nəşr etdirmişdir. Özbək şairi Məhəmməd Salihin *"Şeybaninamə"* poemasını (XVI əsr) Azərbaycan dilində transkripsiya və tərcümə ilə birlikdə nəşrə hazırlamışdır. Alimin yaradıcılığında görkəmli şəxsiyyətlərin, mütəfəkkirlərin Azərbaycan mədəniyyətinə, fikir tarixinə verdiyi töhfələr araşdırılmışdır. Bu baxımdan AMEA-nın müxbir üzvü Əbülfəz Aman oğlu Quliyevin *"Məhəmməd Ağa Şahtaxtlının Publisistikası"* (Bakı: Elm və təhsil, 2016, 128 s.) adlı monoqrafiyası Azərbaycanın ictimai fikir, mədəniyyət tarixində mühüm xidmətləri olan və dünya miqyasında tanınmış şəxsiyyətlərdən biri olan Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinə həsr olunmuşdur. Monoqrafiyada Məhəmməd ağa Şahtaxtlının həyat və yaradıcılığı, eləcə də bu nəslin görkəmli nümayəndələri olan İsasultan Şahtaxtinski, Behbud ağa Şahtaxtinski, Həmid ağa Şahtaxtinski, Həbibulla Şahtaxtinski haqqında məlumat verilmiş, Məhəmməd ağa Şahtaxlının elmi yaradıcılığının əsas dövrləri təhlil olunmuşdur. Görkəmli ictimai xadim Məhəmməd ağa Şahtaxtlı 1875-ci ildən vətənə qayıtmış, Tiflisdə nəşr olunan *"Qafqaz", "Tifliskiy Listok", "Novoye Obozrenie"* qəzetlərinin əsas azərbaycanlı müəllifi kimi tanınması, linqvist-şərqşünas kimi Şahtaxtlının Azərbaycanda yeni əlifba uğrunda mübarizə tarixinə aydınlıq gətirilmişdir. Əsərdə bununla yanaşı XX əsrin əvvəllərində Azərbaycan dilində ilk qəzeti olan *"Şərqi-Rus"*un yaradılması Şahtaxtlının Azərbaycan mədəniyyəti tarixində ən böyük xidmətlərindən biri kimi yüksək qiymətləndirilmişdir. Əsərin *"Məhəmməd Ağa Şahtaxtlının Publisistikasında Naxçıvan"* adlı hissəsində tanınmış ictimai xadim, naşir, publisist Məhəmməd ağa Şahtaxtlının öz doğma vətənindən bəhs edən məqalələri tədqiqata cəlb olunmuşdur. Monoqrafiyada *"Şərqi-Rus"* qəzeti ilə M.T.Sidqi, M.S.Ordubadi, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, H.Cavid və Ə.Qəmküsarın əlaqə və fəaliyyəti araşdırılmışdır. Həmçinin 1920-1921-ci illərdə Naxçıvanın erməni işğalından xilas edilməsində böyük fədakarlıq göstərmiş Türk sərkərdəsi general Veysel Ünüvarın Naxçıvan tarixşünaslığı baxımından böyük əhəmiyyətə malik olan Türkiyədə nəşr olunmuş xatirələrini Azərbaycan dilinə tərcümə edərək *"Naxçıvan: Təlatüm Və Burulğanlar (1920-1921)"* adı ilə nəşr etdirmişdir. Əbülfəz müəllim tərcümə sahəsində məhsuldar fəaliyyət göstərərək müxtəlif Türk dillərindən, o cümlədən qədim Türk dillərindən bir çox əsərləri tərcümə etmişdir. Ə.Quliyevin 2025-ci ildə Ankarada *"Əski Türkcədə Şəxs Adları"* əsəri dərc olunmuşdur. Qeyd olunduğu kimi Əski Türk onomastikasının mühüm bir hissəsini şəxs adları təşkil edir. Monoqrafiyada da Göktürk, Uygur ve XI əsrə aid Uygur-Oğuz antroponimləri tarixi-müqayisəli planda araşdırılmışdır.

Görkəmli dilçi Ə.İ.Quliyev məhsuldar elmi fəaliyyətinə görə 2007-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. O, Ankara, İstanbul, Moskva, Zaqreb, Tiflis, Tehran, Aşqabad, Daşkənd və s. şəhərlərdə Türkologiyaya aid keçirilmiş qurultay və konfranslarda məruzələrlə çıxış etmişdir. Onun elmi rəhbərliyi ilə onlarla dissertasiya müdafiə olunmuşdur. Bununla yanaşı Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının sədri, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında fəaliyyət göstərən Terminologiya Komitəsinin və Filologiya üzrə Respublika Problem Şurasının üzvüdür. Beynəlxalq *"Türkologiya"* jurnalının, *"AMEA-nın Xəbərlər (Humanitar Elmlər Seriyası)"*, Türkiyədə nəşr olunan *"Bilimsəl Eksen", "Kültür Evreni"*, Qazaxıstan Beynəlxalq Türk Akademiyasında nəşr olunan *"Turki Jiğnak"* jurnalının redaksiya heyətinin

üzvüdür. Əbülfəz müəllimin elmi-pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, o, ölkə Prezidentinin sərəncamı ilə respublikanın Əməkdar müəllimi fəxri adını almışdır. Bundan əlavə, o, Türkiyə və Azərbaycan arasında elmi və mədəni əlaqələrinin inkişafındakı səmərəli xidmətlərinə görə qərargahı Ankarada olan Avrasiya Kurumunun mükafatına, elmi fəaliyyətinə görə 2 dəfə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuş, İran İslam Respublikası beynəlxalq Şəhriyar mükafatına layiq görülmüşdür (2015). Ölkə prezidentinin sərəncamı ilə Dövlət Dil komissiyasına üzv təyin edilmişdir (2017). Türkiyə Elmlər Akademiyasının "İlin Elm Adamı" mükafatına layiq görülmüşdür (2019). 2017-ci ildən etibarən Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvüdür. Onun adı Türkiyədə çap olunan *"Türkiyədən Kənardakı Türkoloqlar"* kitabına daxil edilmişdir. Onun 2023-cü ildə nəşr olunmuş *"Heydər Əliyev: Tariximizdə və Taleyimizdə"* kitabı və tərtib etdiyi *"Heydər Əliyev: Taleyi Və Siyasi Fəaliyyəti"* kitablarında ulu öndərin dövlətçilik təlimində həyatımızın bütün sahələrində olduğu kimi dil, ədəbiyyat və mədəniyyət siyasəti və xidmətləri faktlar əsasında tədqiq və təhlil olunmuşdur. 2024-cü ildə Ölkə prezidentinin sərəncamı ilə *"Heydər Əliyevin 100 Illiyi"* yubiley medalı ilə təltif olunmuşdur.

Görkəmli alim Türkiyə ilə Azərbaycan arasında elmi və mədəni əlaqələrin inkişafındakı səmərəli xidmətlərinə görə Avrasiya kurumunun ödülünə layiq görülmüşdür. Professor Əbülfəz Aman oğlu Quliyev Azərbaycanda Türkologiyanın, dialektologiyanın inkişafına böyük töhfələr vermişdir. Görkəmli alimi 75 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı, yeni elmi uğurlar arzulayırıq.